# İrəvan avantüra ilə məşğuldur

## Sülh müqaviləsi olmasa, yenə Ermənistan uduzacaq

"Mehriban qonşuluq siyasətinin formalaşdırılması, beynəlxalq ədalətin təmin olunması Azərbaycanın yürütdüyü xarici siyasətin əsas istiqamətləridir. Lakin Azərbaycanın öz ərazi bütövlüyünü tam bərpa etməsini həzm edə və dövlətimizin güclənməsi ilə barışa bilməyən bəzi qüvvələr ölkəmizlə bağlı ən müxtəlif yalanlara, şər-böhtana əl atırlar".



Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, bəzi Avropa təsisatları, o cümlədən Avropa Parlamenti, Avropa İttifaqı, həmçinin Fransa, Niderland, Almaniya və digər ölkələr öz mövqeyində bunu aydın nümayiş etdirirlər. Məhz həmin güclər Ermənistanla sülh sazişinin imzalanmaması üçün əllərindən gələni edirlər. Təəssüf ki, müstəqil dövlət olduğunu unudan Ermənistan tərəfi də bu güclərin diktəsi ilə oturub-durur.

Kamran Bayramov qeyd edib ki, Azərbaycana qarşı qərəzli mövqeyi ilə seçilən, erməni lobbisinin "yemlədiyi" qüvvələr yenidən fəallaşıb. Onlar Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması, sərhədlərin delimitasiyası prosesinin getdiyi ərəfədə Azərbaycanofobiya və separatizmi dəstəkləyən bəyanatların sayını artırıblar. "Qərbi Avropa ölkələri, xüsusən Fransa, Almaniya Azərbaycan əleyhinə atdığı addımlarla açıq şəkildə nümayiş etdirir ki, Cənubi Qafqaza sabitliyin, əmin-amanlığın gəlməsində maraqlı deyillər. Onlar regionda sülhü bərpa etmək əvəzinə müharibəni daha da alovlandırıb yeni savaşlar çıxarmaq istəyirlər. Ukraynanı sonu görünməyən bataqlığa qərq edən Qərb, eyni siyasəti Azərbaycan və Ermənistanla bağlı da aparır və iki ölkə arasında düşmənçiliyin sonsuzadək davam etməsində maraqlıdırlar. Əgər bunun əksi olsaydı, torpaqlarımızın otuz il işğalda qalmasına, bir milyona yaxın qaçqın, köçkün probleminə, ərazimizdə separatizmin mövcudluğuna göz yummazdılar. Azərbaycan torpaqları işğal altında olduğu illərdə də beynəlxalq vasitəçilər rəsmi İrəvanın törətdiyi əməllərə görə sanksiyalar tətbiq etməyib, əksinə, müxtəlif məqsədlər adı altında ona maliyyə yardımları ediblər. 44 günlük müharibədən sonra məlum oldu ki, ermənilər həmin maliyyə yardımlarını işğal etdikləri Azərbaycan torpaqlarında hərbi istehkamlar tikməyə sərf ediblər", - deyə o əlavə edib.

Müsahibimiz diqqətə çatdırıb ki, Avropa təsisatları Azərbaycanın öz ərazisində keçirdiyi birgünlük lokal antiterror tədbirlərinin mahiyyətinə və nəticəsinə də ədalətlə yanaşmayıblar. Qərb dairələri tərəfindən əsassız şəkildə Azərbaycanı "etnik təmizləmə" siyasəti həyata keçirən ölkə kimi təqdim etmək cəhdləri özünü açıq büruzə verir. Ermənistana ardıcıl maliyyə və humanitar yardımların göstərilməsi, bu ölkənin yenidən silahlandırılması istiqamətində atılan addımlar Qərbin ikiüzlülüyünü və riyakarlığını bir daha bariz şəkildə göstərir. Göründüyü kimi, Avropa təsisatları ədalətli ola bilmirlər. Əksinə, Avropa Şurası, Avropa Parlamenti, Avropa İttifaqı Fransanın oyunlarına ortaq olurlar.

Parisin Cənubi Qafqaz siyasətinin regionda yeni müharibəyə təhrik etmək, qarşıdurma yaratmaq olduğunu deyən deputat bildirib ki, Ermənistanı silahlandıran Fransa ölkəmiz əleyhinə qərəzli qətnamələrin, bəyanatların müəllifidir: "İllərdir Fransanın qanunverici strukturları - həm Senat, həm də Milli Assambleya səviyyəsində regionda separatizmin, mövcud vəziyyətin saxlanılması üçün əllərindən gələni əsirgəmirlər. Digər tərəfdən, Paris həm birbaşa, həm də Hindistanın əli ilə Ermənistana öldürücü silahlar ötürür, onu müharibəyə hazırlaşdırır".

K.Bayramov vurğulayıb ki, rəsmi İrəvan dörd ilə yaxındır yalan danışır, avantüra ilə məşğuldur. Əgər Ermənistan sülh prosesini uzatsa, uduzan tərəf də elə özü olacaq, çünki başqa çıxış yolları yoxdur. Azərbaycan bu gün regionda lider dövlət olmaqla yanaşı, qlobal müstəvidə də mühüm oyunçuya çevrilməkdədir. Cənubi Qafqazda maraqları olan güclər Azərbaycanla hesablaşmalı olduqlarını da bilirlər. Onların Ermənistanla bağlı populist çıxışlarının arxasında yalançı vədlərin, boş sözlərin olduğu gün kimi aydındır və bunları saymaqla bitən deyil. Azərbaycan isə sülh və təhlükəsizlik fonunda yeni səhifə açmağa hazırdır. Bu mənada, Ermənistanın gələcəyi irəli sürülən təşəbbüslərə onun konstruktiv və adekvat cavab verməsindən asılıdır. Bu, nə qədər tez baş verərsə, bütün region, eləcə də Ermənistan üçün faydalı olar.

Göründüyü kimi, Ermənistanın və Avropadakı havadarlarının ara qarışdırmalarına baxmayaraq, rəsmi Bakı bütün görüş və toplantılarda sülh çağırışlarına sadiqliyini nümayiş etdirir.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 6 avqust (№ 165).- S.10.